## İto şəhəri ənənəvi Yaponiya mədəniyyəti ilə tanışlıq təşkılatının təqdimatı

İsmayıllı rayonu ilə qarşılıqlı dostluq və əməkdaşlıq haqqında saziş imzalayan İto şəhərindən Yaponiya mədəniyyəti ilə tanışlıq təşkilatının nümayəndələri 30 sentyabr - 4 oktyabr tarixilərində Azərbaycana səfər etmişdilər. 30 sentyabr tarixində Toyota Bakı Mərkəzində müştərilər və sıravi tamaşaçılar üçün, 1 oktyabr tarixində Bakı Dövlət Universitetində universitetin və Xarici Dillər İnstitutunun yapon dilini tədris edən tələbələri üçün, 3 oktyabr tarixində İsmayıllı rayonunun mərkəzində, 4 oktaybr tarixində isə İvanovka kəndində şagirdlər başda olmaqla, sıravi tamaşaçılar üçün kimono (ənənəvi yapon geyimi), sado (yapon çay mərasimi), ikebana (gül bəzədilməsi mərasimi), koto (musiqi aləti), oriqami (kağızdan fiqurların hazırlanması), şodo (kalliqrafiya) nümayişi və master klass keçirilmişdir.









